**İkinci Dünya müharibəsində qazanılan qələbədən 80 il keçir. O ağır, qanlı-qadalı illərdə azərbaycanlılar böyük qəhrəmanlıqlar göstərdilər. Bu, tarix olaraq həmişə etiraf olunsa da, olunmasa da yaşadılacaq. Döyüşlər Azərbaycandan çox-çox uzaqlarda getsə də ağrı-acısı hər kənddə, hər evdə duyulurdu. Bir şeirdə deyildiyi kimi,**

**Dava kəndimizdən uzaq olsa da,**
**Dava kəndimizin içindən keçib...**



# Döyüşlərdən qəhrəman kimi qayıtmışdı...

"Tütək səsi" bədii filmini hamımız xatırlayırıq. Bu film İkinci Dünya müharibəsinə azərbaycanlıların münasibətinin bədii (və gerçək!) ifadəsidir. Xatirələrdə, yaddaşlarda qalanlar da tarixdir; Zəngilan da, zəngilanlılar da müharibənin sıxıntılarını yaşayıblar.

İdris Şıxəliyev 1921-ci ildə Zəngilanın Qazançı kəndində anadan olub. 1938-ci ildə Şayıflı kənd orta məktəbini bitirib. 1939-cu ildə hərbi xidmətə çağırılıb. İdris Şıxəliyev hərbi xidmətə əsgər kimi getmişdi, döyüşçü oldu. Neçə-neçə ağır döyüşlərdə iştirak etdi, azərbaycanlı qətiyyəti ilə döyüşdü. Yaralansa da müalicə olunduqdan sonra yenidən döyüşlərə qayıtdı. Döyüşlərin birində komandir İdris Şıxəliyevə deyib ki, bizim cəbhədə sənin həmyerlilərin əsl qəhrəmanlıqla döyüşürlər. İnanıram ki, sənin kimi cəsarətli döyüşçü də onlar kimi döyüşəcək.

Ordumuz döyüşə-döyüşə Lvova yaxınlaşmışdı. 1944-cü ilin avqust ayı idi. Ordu hissələrimiz qələbə qazanaraq Polşanın ərazisinə daxil olmuşdu. Düşmən Visla çayının sol kənarına, Ojukov kəndinə qədər sıxışdırılmışdı. Komandir qısa döyüş fasiləsindən də səmərəli istifadə etməyi qərara aldı: irəliləmək, qələbəni davam etdirmək üçün kəşfiyyatçıların məlumatı lazımdır. Kəşfiyyatçılar qrupunun komandiri İdris Şıxəliyevi və özbək Canıbalanı kəşfiyyata göndərdi. Kəşfiyyatçılar çayı keçəndən sonra şose yolunadək iki kilometr irəlilədilər. Ətraf tam səssizlik idi. Elə bil buralar müharibədən min kilometrlərlə uzaqlardaydı. Adətən kəşfiyyata ya gecə gedirdilər, ya da görünmə şəraiti çətin olanda. Onlar kəşfiyyata gündüz getmişdilər. Bu, xeyli gərginlik yaratmışdı. Buna baxmayaraq, cəsarətli kəşfiyyatçılar müəyyən etdilər ki, düşmən Visla çayının sağındakı meşəlikdə daldalanıb. Hansı məqamdasa üzə çıxacaq. Bu vaxt yolda biryedəkli motosiklet göründü. Kəşfiyyatçılar anındaca onun üstünə atıldılar. Motosiklet çevrildi, almanlardan ikisini öldürdülər, birini əsir tutdular. Güllə səsi eşidən düşmən uzaqlaşmaqda olan kəşfiyyatçılarımızı təqib edirdi. İdris Canıbalaya əmr etdi ki, əsiri hərbi hissəyə çatdırsın, özü düşmənin qarşısını kəsdi. Canıbala hərbi hissəyə vaxtında çatıbmış: tezliklə hərbi hissədən onun köməyinə gəldilər. Əməliyyat uğurla nəticələndi. Avqustun 16-da İdris Şıxəliyev 3-cü dərəcəli "Şöhrət" ordeninə layiq görüldü. Müharibənin gedişində partiya sıralarına qəbul olunmaq o illərdə böyük qürur idi; cəsur döyüşçünü partiya sıralarına qəbul etdilər...

1944-cü il sentyabrın 12-də üç döyüşçünü kəşfiyyata göndərmişdilər. İdris Şıxəliyevin komandirliyi ilə onlar düşmənin yerini, texnikalarının sayını, imkan olsa, canlı qüvvələrinin miqdarını da öyrənməli idilər. Düşmənin mövqelərinə son dərəcədə diqqətlə, ehtiyatla yaxınlaşmışdılar. Lazımi məlumatları toplayıb geri qayıdırdılar. Qəflətən üç düşmən tankı, 30-a yaxın düşmən əsgəri ilə qarşılaşdılar. Döyüşsüz ötüşə bilməyəcəkdilər. Bəs məlumatlar? İdris Şıxəliyev əsgərlərdən birinə məlumatı hərbi hissəyə çatdırmağı tapşırdı. İkilikdə düşmənin bu qədər qüvvəsi ilə döyüşməyə qərar verdilər. Döyüşdə o biri əsgər həlak oldu, İdris tək qaldı. Sağ - düşmən, sol - düşmən, ön - düşmən. Əslində tək deyildi, Vətən sevgisi onun səngər daşı, azərbaycançılığı döyüş yoldaşı, qətiyyəti silahdaşıydı. Sağ çiynindən yaralandı, qumbarası yox idi. Tapançasını son ümid kimi əlində tutaraq yaxındakı körpünün altına süründü. Düsmən əlinə keçməmək üçün sonuncu dəfə atəş açacaqdı özünə. Hərbi hissədə iki kəşfiyyatçının xeyli üstün qüvvə ilə döyüşdüyünü bilmişdilər, komandanlığın göstərişi ilə həmin əraziyə xeyli döyüşçü göndərilmişdi, ərazini atəşə tutdular. Bu qəfil və davamlı atışdan çəkinən düşmən geri çəkilmişdi. İdris Şıxəliyev beş saat huşsuz vəziyyətdə körpünün altında qalmışdı. Onu tapıb hərbi hissəyə gətirmiş, sonra hospitala təxliyə etmişdilər. Dekabr ayına kimi burada müalicə olunmuşdu. "İkinci Dərəcəli Şöhrət" ordeni ilə təltif edildiyini də hərbi hospitalda eşitmişdi. Müalicə olundu. Yenidən döyüşlərə qayıtdı. Müharibənin sonuna kimi döyüşdü.

Birinci Ukrayna Cəbhəsinin komandanı, Sovet İttifaqı marşalı İ.Konevin imzası ilə İ.Şıxəliyevə verilmiş təşəkkürdə yazılmışdı: "Hörmətli İdris Şıxəliyev yoldaş, qızıl ordu bütün cəbhələrdə alman faşistləri üzərində şanlı qələbə çaldı. Bu qələbə milyonlarla insanın dinc əməyə qayıtmasıdır. Onda Sizin də əməyiniz var. Ukraynada Jitomir, Vinniça, Komoneç-Podolsk, Kovel, Ternopol və Lvov şəhərlərinin azad edilməsində Siz də iştirak etmişsiniz. Siz Polşada Sap və Visla çayları ətrafında, Krakov və Yuxarı Sileziya şəhərlərinin azad edilməsində mərdliklə vurusmusunuz. Macarıstan, Ruminiya, Çexoslavakiya, Yuqoslaviya torpaqlarının faşizmdən təmizlənməsində iştirak etmisiniz. Siz komandanlıq tərəfindən 24 dəfə təşəkkür almış, orden və medallara layiq görülmüsünüz...". Bu məktub bir döyüşçüyə - İdris Şıxəliyevə yazılıb, ancaq mahiyyəti döyüşçünün Vətəninə - Azərbaycana ehtiramı ifadə edir. Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı haqqında marşal İ.Konevin də geniş məlumatı vardı. Bu bəlkə də marşalın Azərbaycana sevgisi səviyyəsində ehtiram idi.

Müharibə qələbə ilə başa çatdı. 300 mindən çox əsgər və zabitimiz döyüşlərdə həlak oldu. İdris Şıxəliyev tərxis olundu. Qələbə sevinci, Azərbaycana qayıtmanın sevinci, bir də Qazançının hüsnünə qalib döyüşçü kimi baxmaq istəyi...

1946-cı ildə İdris Şıxəliyev müharibədən Zəngilana qayıtdı. Kolxozda mühasib vəzifəsinə təyin olundu. Bir müddət işlədi. İş qabiliyyətini, ünsiyyət yaratma bacarığını görüb, onun daha yüksək vəzifələrdə işləyə biləcəyinə inandılar. Bu inama görə də perspektivli kadr kimi ali siyasi təhsil alması üçün Bakı Partiya məktəbinə göndərdilər. Ali Partiya Məktəbini 1953-cü ildə bitirdi. Zəngilana qayıtdı. Rayon partiya komitəsində təlimatçı, Zəngilan Maşın-Traktor Stansiyasında partiya təşkilatının katibi, "Partiyanın 22-ci qurultayı" adına kolxozun sədri, 1963-cü ildən 1989-cu ilədək Zəngilan Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin katibi işlədi. Quruculuq işlərində səmərəli əmək fəaliyyətinə görə "Şərəf nişanı" ordeni, "Rəşadətli əməyə görə" V.İ.Leninin anadan olmasının 100 illiyi yubiley medalı, "Əmək veteranı" medalı, digər orden və medallarla təltif edildi.

Boylu-buxunlu, gülərüz siması olan İdris Şıxəliyev bütün zəngilanlıların böyük hörmət və ehtiramını qazanmışdı. Təqaüddə olduğu müddətdə müharibə və əmək veteranı kimi həmişə xatirələrini gənclərə danışardı, onların hərbi vətənpərvərlik ruhunda formalaşmasının cəfakeşlərindən biri idi, "ömrümün bundan beləsini belə yaşamaq istəyirəm..." deyirdi. 2000-ci il yanvarın 10-da dünyasını dəyişdi.

İdris Şıxəliyev rayon partiya komitəsinin plenum üzvü olmuş, səkkiz dəfə rayon sovetinin deputatı seçilmişdi. O, rayon ictimaiyyətinin məsləhət və güvənc yeri idi. Mənəvi saflığı, sadəliyi və təvazökarlığı ilə hamının könül dünyasının işığına dönmüşdü...

İllər on illər oldu, on illər səksən il. İkinci Dünya müharibəsində qələbədən 80 il keçir. O qanlı-qadalı illərin döyüşçüləri, döyüşlərdən dönməyənlər, itkin düşənlər unudulmur. Zəngilanın Qazançı kəndində anadan olan İdris Şıxəliyevin xatirəsini bir qəhrəman döyüşçü kimi böyük ehtiramlarla anırıq.

**Bayram MƏMMƏDOV,**
**istefada olan polkovnik-leytenant,**
**Əməkdar müəllim.**